UOT 330.101:330.837:330.8

# Milli iqtisadiyyata nəzəri baxışlar

Azərbaycanın vergi xəbərləri



**Həmidova Mehriban Yadulla qızı***
iqtisadiyyat üzrə fəlsəfə doktoru


## Xülasə

*Tədqiqatın məqsədini* - çox mürəkkəb təsərrüfat, sosial, təşkilati, elmi-texnoloji sistem olan milli iqtisadiyyata nəzəri baxışların araşdırılması və onların özünəməxsus xüsusiyyətlərinin əsaslandırılması təşkil edir.

*Tədqiqatın metodologiyası* - sistemli yanaşma və müqayisəli təhlil metodları.

*Tədqiqatın nəticələri* - milli iqtisadiyyata dair nəzəriyyənin inkişafı baxımdan yeni elmi-nəzəri əsaslandırmaların müəyyən edilməsi.

*Tədqiqatın məhdudiyyətləri* - elmi-nəzəri əsaslar baxımından daha geniş araşdırmalar tələb olunur.

*Tədqiqatın praktiki əhəmiyyəti* - milli iqtisadiyyatların yeni inkişaf konsepsiyalarının hazırlanmasında elmi mənbə kimi istifadə imkanlığı.

*Tədqiqatın orijinallığı və elmi yeniliyi* - milli iqtisadiyyat nəzəriyyəsi ilə bağlı yeni elmi-tədqiqat əsaslandırmalarından biri kimi çıxış etməsi.


**Açar sözlər:** *iqtisadi nəzəriyyə, milli iqtisadiyyat, institusionalizm.*

## 1. Giriş

Hər bir ölkənin milli iqtisadiyyatı çox mürəkkəb təsərrüfat, sosial, təşkilati, elmi-texnoloji sistemdir. O, ölkə iqtisadiyyatının fəaliyyət prosesində yığılmış potensialın reallaşması nəticəsində əldə olunan məcmu iqtisadi səmərəyə malikdir. Onların arasında təbii-resurs, istehsal, əmək, elmi-texniki və digər potensialları ayırmaq məqsədəuyğundur.

Milli təsərrüfat sisteminin inkişafı milli bazarın yaranmasına və təkmilləşdirilmə-

*Bakı Dövlət Universiteti, Bakı şəhəri, AZ 1148 Z.Xəlilov 23
perviz595959@mail.ru



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

sinə gətirib çıxarır ki, bunun da hüdudlarında onun ayrı-ayrı seqmentləri: əmtəə və kapital bazarları, xidmətlər bazarı, əmək bazarı, daşınmaz əmlak bazarı, əqli mülkiyyət bazarı, istehsal vasitələri bazarı və s. formalaşır və fəaliyyət göstərir. Elə bu məqalə də milli iqtisadiyyatı institusional mövzu səmtində dərk etməyə cəhddir. Eyni zamanda, vurğulanır ki, tədqiqatın orijinallığını milli iqtisadiyyatın sərbəst sahə kimi təşəkkülünü hazırlayan, klassik siyasi iqtisadın formalizm və abstraksiyasına qarşı qəti etiraz olan tarixi məktəbin inkişafı üzrə spesifikliyi ilə fərqlənən elmi-tədqiqat əsaslandırmalarından biri kimi çıxış etməsi səciyyələndirir.

## 2. Klassik siyasi iqtisadı tənqid edən tarixi yanaşmalar və onların səciyyəvi xüsusiyyətləri

Klassik siyasi iqtisadın ilk tənqidçisi kimi alman iqtisadçısı Fridrix List (*1789-1846*) çıxış etmişdir. Özünün "Siyasi iqtisadın milli sistemi" əsərində siyasi iqtisada universal və ən təkmil sistem kimi yox, tarixi elm kimi yanaşır və millətin iqtisadi inkişafının beş mərhələsini ayırır. Belə tarixi yanaşma təsadüfü deyildi, axı F.List ilk növbədə öz ölkəsinin (*Almaniyanın*) inkişaf xüsusiyyətlərini əks etdirmək istəyirdi.

Tarixin özü ən böyük millilikdir. Ona görə də, A.Smitin kosmopolitik iqtisadiyyatını tənqid edərkən, F.List ilk növbədə milli iqtisadçı kimi çıxış edir. "Mübadilə qiymətliləri siyasi iqtisadı" əsərində istehsal qüvvələrinin milli iqtisadi nəzəriyyəsini qarşı qoyur ki, bunun da mərkəzində əmək bölgüsü yox, daxili bazarın xarici üzərində prioriteti dayanır. Nisbi üstünlüklərdən əsasən varlı dövlətlərin istifadə edə biləcəyini, fritriderçiliyin[1] isə, qabaqcıl millətlərə sərfəli olduğunu anlayaraq, o, proteksionist siyasətin pərdəsi altında Almaniyanın kompleks inkişafını müdafiə edir (fabrik-zavod sənayesinin əkinçiliklə harmonik ahəngi). O, hesab edir ki, proteksionist siyasəti nəticəsində qiymətlərin artırılması millətin sənaye tərbiyəsi vasitəsi olacaq [9].

Məhz F.Listin baxışları milli iqtisadiyyatın sərbəst sahə kimi təşəkkülünü hazırlayan tarixi məktəbin inkişafını müəyyən etdi. Tarixi məktəb insanı ikinci dərəcəli detala çevirən klassik siyasi iqtisadın formalizm və abstraksiyasına qarşı qəti etiraz oldu. O, insan amilinin bəşəriyyətin inkişafında oynadığı rolun artan düşüncəsini əks etdirdi.

Öz inkişafında tarixi məktəb üç: köhnə (*V.Roşer, B.Gildebrand, K.Knis*), yeni (*Q.Şmoller, K.Byüher*) və ən yeni (*V.Zombard, M.Veber*) mərhələni keçmişdir [2, 7].

Klassik siyasi iqtisadı tənqid edən alman iqtisadçısı Qustav Şmoller (*1838-1917*) faktiki təsərrüfat davranışının dürüst təsvirini təbliğ edir, inkişafın qeyri-iqtisadi amillərinin, hər şeydən əvvəl, təsərrüfat həyatında mənəvi normaların, etika və mədəniyyətin rolunu vurğulayırdı [7, 9].

[1]Fritriderçilik - iqtisadi nəzəriyyədə, siyasət və təsərrüfat həyatında azad ticarəti və dövlətin sahibkarlıq fəaliyyətinə müdaxilə etməməsini elan edən istiqamət.

Alman iqtisadçısı Verner Zombard (*1863-1946*) müasir kapitalizm genezisinə həyatın özünəməxsus təzahürü kimi baxaraq, iqtisadi quruluşun xüsusi cizgilərinin formalaşmasında institutların rolunu təhlil edirdi [9].

Alman iqtisadçısı Maks Veber (*1864-1920*) kapitalizmin müxtəlif: siyasi, imperialist, fiskal, sənaye növlərini göstərmişdi. Amma, yəqin ki, müasirlərinə M.Veberin "Protestant etikası və kapitalizm mənəviyyatı" və "Legitim idarəetmənin üç xalis növü" əsərlərində dürüst ifadə olunan fikirləri daha çox təsir etdi. Bazar təsərrüfatının mənbəyini avropa sivilizasiyasının özünə xas xüsusiyyətləri ilə birbaşa olaraq əlaqələndirən ilk əsər digər ölkələrdə həyatın ənənəsi haqqında məsələni kəskin şəkildə qarşıya qoydu, bununla əlaqədar, dünya təsərrüfatının o vaxtkı periferiyasının sürətli kapitalist modernləşdirilməsinin mümkünsüzlüyü göstərilirdi [3, 8].

M.Veberin apardığı əsas idarəetmə növlərinin təsnifatlandırılması göstərdi ki, onların müxtəlif əsasları var: səmərəli-leqal-qanuniləşdirilmiş səmərəli idarəetmə; ənənəvi-tarixən formalaşmış normalar; xarizmatik-liderin şəxsiyyətinin sadiqliyi, onun nadir bacarıqlarına: cəsurluğuna, mənəvi keyfiyyətlərinə və natiqliq istedadına inam. Bu üç "ideal" hökmranlıq növləri nəinki onların prinsipial fərqlərini açdı, həm də iqtisadi hadisələrin təhlilinə daha adekvat sivil yanaşmanın zəruriliyini əsaslandırdı.

M.Veber əmin idi ki, iqtisadi inkişaf qanunlarını bilavasitə tarixdən götürmək olmaz. Real təmayüllərin öyrənilməsi bu və ya digər hadisələrin baş vermə ehtimalını eyniləşdirməyə imkan verir. Nəzəriyyələrdə mühüm əhəmiyyətə malik olan qiymətli fikirləri elmi tədqiqatlarla təsdiq etmək çox çətindir. M.Veber inkişafın marksist konstruksiyasını inkar etməsə də, hesab edirdi ki, əgər onlar nəzəri cəhətdən doğru olsalar belə, daha çox ideal növlərdir [3, 9].

Alman filosofu və iqtisadçısı K.Marksın (*1818-1883*) tədqiqat mənbəyi maddi, ictimai-təşkil olunmuş, tarixən müəyyən olunmuş istehsaldır. O, istehsal üsulunu istehsal qüvvələrinin və istehsal münasibətlərinin dialektik vahidliyi kimi, istehsal qüvvələrinin özünü isə, insanın təbiət üzərində hakimiyyət ölçüsü kimi xarakterizə edir. K.Marksın nöqteyi-nəzərinə görə, bəşəriyyətin əsas istehsal qüvvəsi istehsal vasitələri yox, ümumi və peşəkar biliklərə, istehsal təcrübəsinə, əmək vərdişlərinə malik olan fəhlə, zəhmətkeş, işçi, bacarıq və yaradıcı qüvvəyə malik olan insandır. K.Marks onların inkişafının keyfiyyətcə müxtəlif mərhələlərini ayırır ki, bunlar da istehsal münasibətlərinin daxilində və onların vasitəsilə baş verir (*təbii istehsal qüvvələri, ictimai istehsal qüvvələri, ümumi istehsal qüvvələri*) [1, IV. s. 168]. Amma bu mərhələlərin anlaşması ancaq XX əsrin axırlarında mümkün oldu. XX əsrin əvvəllərində tam başqa təsəvvür hökmranlıq edirdi. Məhz Rusiyanın görkəmli elm xadimi Q.V.Plexanovun (1856-1918) sayəsində əmək alətlərinə istehsal qüvvələrinin müəyyənedici vasitəsi baxışı geniş vüsət aldı [9].

İqtisadi sistemləri bir-birindən ayıran sərhədlər sənaye və elmi-texniki inqilabdır. Bu sistemlərin hər birinin daxilində daha parçalanmış tipologiya mümkündür ki, bu

da formasiya və sivil yanaşmaların sintezi üçün yolları müəyyənləşdirməyə imkan verir.

K.Marks və alman filosofu F.Engels (*1820-1895*) tərəfindən işlənmiş tarixin materialist anlaşması milli iqtisadiyyatın təhlili üçün yeni metodoloji zəminlər yaratdı [1, I. s. 47-49].

Milli iqtisadi sistemlərin müasir dövrdə öyrənilməsi əsasən institusional iqtisadi nəzəriyyə əsasında baş verir. Amerika zəminində formalaşan institusionalizm alman tarixi məktəbinin, ingilis fabiçilərinin, fransız sosioloji ənənəsinin əksər ideyalarını özündə cəmlədi. Marksizmin də institusionalizmə təsirini inkar etmək olmaz. Köhnə institusionalizm XIX əsrin axırlarında yaranmış və XX əsrin 20-30-cu illərində cərəyan kimi formalaşmışdır. O, ekonomikslə marksizm arasında "orta xətti" tutmağa cəhd göstərmişdi.

1898-ci ildə Amerika iqtisadçısı Torsteyn Veblen (*1857-1929*) alman iqtisadçısı Q.Şmolleri (*1838-1917*) həddən artıq empirizmə görə tənqid etdi. İqtisadiyyatın nə üçün təkamül elmi olmadığı sualına cavab verməyə cəhd göstərərək, o, dar iqtisadi yanaşma əvəzinə, sosial fəlsəfəni, antropologiyanı və psixologiyanı özündə cəmləyən sahələrarası yanaşmanı təklif edir. Bu iqtisadi nəzəriyyəni sosial problemlərə çevirmək cəhdi idi [4, 5].

### 3. İnstitusionalizm ilə bağlı strategiyanın təkmilləşdirilməsinin elmi əsaslandırmaları

1918-ci ildə "institusionalizm"[2] anlayışı peyda olur. Onu Uilton Hamilton tətbiq edir. O, institutu "qrupların vərdişlərində və xalqların ənənələrində həkk olunmuş düşüncə tərzi və hərəkətlər" kimi müəyyən edir. Onun nöqteyi-nəzərinə görə, institutlar köhnə prosedurаları təsbit edir, ümumi razılaşmanı, cəmiyyətdə formalaşan həmrəyliyi əks etdirir. İnstitut dedikdə, ənənələr, korporasiyalar, həmkarlar ittifaqları, dövlət və s. başa düşülür. Adətən, ənənəvi institusionalistlərə T.Veblen, Amerika iqtisadçısı–institusionalisti U.Kler Mitçell (*1874-1948*), Amerika iqtisadçısı -institusionalisti C.Kommons (*1862-1945*), alman iqtisadçısı K.A.Vittfogel (1*896-1988*), isveç iqtisadçısı Q.Myürdal (*1898-1987*), Amerika iqtisadçısı–institusionalisti C.K.Gelbreyt (*1908-2006*), Amerika iqtisadçısı R.Haylbroner (*1919-2005*) kimi məşhur iqtisadçıları aid edirlər [6, 7].

İnstitusionalizm xüsusi cərəyan kimi hələ XX əsrin axırlarında formalaşsa da, uzun müddət iqtisadi düşüncənin periferiyasında olmuşdur. İqtisadi rifahların hərəkətinin ancaq institusional amillərlə izah olunması çoxlu tərəfdarlara səbəb olmurdu.

"Köhnə" institusionalistlərlə (*Torsteyn Veblen, C.Kommons, C.K.Gelbreyt*) qeyri-institusionalistlər (*R.Kouz, D.Nort və ya C.Byükenen*) arasında müəyyən köklü fərqlər var [6, 7, 9].

[2]İnstitusionalizm əsasən cəmiyyətin siyasi təşkilatlarını vətəndaşların müxtəlif birlik kompleksi-institutlar kimi (ailə, partiya, həmkarlar ittifaqı və s.) nəzərdən keçirən sosial-iqtisadi tədqiqat istiqamətidir.

Birincisi, "köhnə" institusionalistlər (məsələn, C.Kommons "Kapitalizmin hüquqi əsasları haqqında") iqtisadiyyata hüquq və siyasətdən gəlir, cəmiyyət haqqında digər elmlərin metodları vasitəsilə müasir iqtisadi nəzəriyyənin problemlərini öyrənməyə cəhd edirdilər; qeyri-institusionalistlər isə, buna əks olan yolla gedirlər-politologiya və hüquq problemlərini neoklassik iqtisadi nəzəriyyənin metodları ilə, hər şeydən əvvəl, müasir mikroiqtisadiyyat aparatı və oyunlar nəzəriyyəsinin tətbiqi ilə öyrənirlər.

İkincisi, ənənəvi institusionalizm əsasən induktiv metoda əsaslanır, xüsusi hallardan ümumiyə doğru getməyə çalışırdı ki, bunun da nəticəsində ümumi institusionalist nəzəriyyə formalaşa bilmədi; qeyri-institusionalizm deduktiv yolla-neoklassik iqtisadi nəzəriyyənin ümumi prinsiplərindən ictimai həyatın konkret hadisələrinin izahına doğru gedirdilər.

Üçüncüsü, "köhnə" institusionalizm radikal iqtisadi düşüncə kimi əsas diqqətini fərdin maraqlarının müdafiəsi üzrə kollektivlərin (*əsasən, həmkarlar ittifaqlarının və hökumətin*) fəaliyyətinə yönəldirdi; qeyri-institusionalizm azad fərdi əsas hesab edir ki, bu da öz iradəsi və öz maraqlarına müvafiq hansı kollektivin üzvü olmasının ona sərfəli olduğunu həll edir.

Aşağıdakı "köhnə" institusionalizmlə qeyri-institusionalizm arasında köklü fərqləri ifadə edən şəkil verilmişdir:

| Əlamət | «Köhnə» institusionalizm | Qeyri-institusionalizm |
|---|---|---|
| Hərəkət | Hüquq və siyasətdən iqtisadiyyata | İqtisadiyyatdan siyasət və hüquqa |
| Metodologiya | Digər humanitar elmlər (*hüquq, politologiya, sosiologiya və s.*) | İqtisadi neoklassik (*mikroiqtisadiyyat metodları və oyunlar nəzəriyyəsi*) |
| Metod | İnduktiv | Deduktiv |
| Diqqət fokusu | Kollektiv hərəkət | Müstəqil fərd |
| Təhlil üçün zəmin | Holizm | Metodoloji fərdiyyətçilik |

**Şəkil: "Köhnə" institusionalizmlə qeyri-institusionalizm arasında köklü fərqlər**

*Mənbə: http://www. gallery.economicus.ru.*

Son illərdə institusional tədqiqatlara maraq artmışdır. Qismən bu ekonomiks üçün xarakterik olan bir sıra şərtlərə (*tam səmərəlilik, təkmil rəqabət aksiomları, ancaq qiymət mexanizmi vasitəsilə tarazlığın yaranması və s.*) məhdudiyyəti aşmaq və müasir iqtisadi, sosial və siyasi prosesləri kompleks və hərtərəfli nəzərdən keçirmək cəhdi ilə, qismən isə, ETT dövründə baş verən halları təhlil etmək cəhdi ilə əlaqədardır, belə ki, bunlara ənənəvi təhqiqat metodlarının tətbiqi arzu olunan nəticəni vermir. Ona görə də, əvvəlcə neoklassik nəzəriyyənin şərtlərinin onun daxilində necə inkişaf etdiyinə nəzər salaq.

Qeyri-institusionalistlər üçün ümumi olan aşağıdakı müddəalar var: birincisi, sosial institutlar əhəmiyyətə malikdir və ikincisi, onlar mikroiqtisadiyyatın standart

alətlərinin köməyilə təhlil olunurlar. 1960-70-ci illərdə Amerika iqtisadçısı Q.Bekkerin (*1930*) "iqtisadi imperializmi" peyda oldu. Məhz bu dövrdə iqtisadi anlayışlar: maksimallaşma, tarazlıq, səmərəlilik, təhsil, ailə münasibətləri, səhiyyə, cinayətkarlıq, siyasət və s. kimi iqtisadiyyat üçün qarışıq sahələrdə fəal tətbiq olunmağa başladı. Bu ona gətirib çıxartdı ki, neoklassik baza iqtisadi kateqoriyaları daha dərin interpretasiya və daha geniş sferada tətbiqini tapdı [8, 9].

Müasir nəzəriyyədə institut dedikdə, cəmiyyətdə "oyun qaydaları" və ya "insan tərəfindən yaradılan" məhdud çərçivələr başa düşülür ki, bunlar da insanlar arasında qarşılıqlı münasibətləri, həmçinin, onların yerinə yetirilməsini təmin edən tədbirlər sistemi təşkil edir. Onlar insanları qarşılıqlı fəaliyyətə vadar edən struktur yaradır, gündəlik həyatı təşkil edərək, qeyri-müəyyənliyi azaldırlar.

Aşağıda cəmiyyət, institutlar və iqtisadiyyat arasınada qarşılıqlı əlaqəlin sxematik təsviri verilmişdir:

**Cəmiyyət ⇄ İnstitutlar ⇄ İqtisadiyyat**

İnstitutlar formal (*məs. ABŞ Konstitusiyası*) və qeyri-formal (*məsələn, sovet «telefon hüququ»*) kimi təsnifatlandırılır [5, 6]:

<u>Qeyri-formal institut dedikdə</u>, ümumi qəbul olunmuş şərtilik və insanların davranışının etik qaydaları başa düşülür. Bu-adətlər, "qanunlar", vərdişlər və ya normativ qaydalardır ki, bunlar da insanların sıx birgə mövcudluğunun nəticəsidir. Onların sayəsində insanlar ətrafdakıların nə istədiyini asanlıqla öyrənir və bir-birlərini yaxşı anlayırlar. Bu davranış kodekslərini mədəniyyət formalaşdırır.

<u>Formal institut dedikdə</u>, xüsusi olaraq buna müvəkkil edilmiş insanlar tərəfindən (*dövlət məmurları*) yaradılan və müdafiə olunan qaydalar başa düşülür.

Cəmiyyət inkişaf etdikcə həm formal, həm də qeyri-formal qaydaların, həm də qayda və məhdudiyyətlərin icra olunmasına məcburiyyətin üsul və səmərəliliyinin dəyişilməsi mümkündür. Formal qaydalarda dəyişiklər (*və ya onlara riayyət olunmasını təmin edən mexanizmlərdə*) adətən kifayət qədər əhəmiyyətli resurs məsrəflərini tələb edir.

İqtisadi subyektlər öz istedad və biliklərini həm əsas, həm də aralıq təşkilatların yaradılması vasitəsilə sərfəli imkanların axtarışına yönəldə bilər, bu da iqtisadi və siyasi sahələrdə fəaliyyət göstərə bilər. Əsas odur ki, onlar tələb olunan dəyişikləri formal qaydalarda təmin etsinlər. İqtisadi dəyişikliklər kifayət qədər sürətlə baş verə bilər (*inqilab və ya nailiyyət dövründə olduğu kimi*). Qeyri-formal qaydalara gəldikdə isə, onlar tədricən baş verir. Burada dəyişikliklərin tempi tam başqadır, əsas rolu mədəniyyət, təsadüf və təbii seçim oynayır.

Yeni və köhnə, formal və qeyri-formal qaydaların toqquşması nəticəsində institutların yaranmasının müxtəlif variantları mümkündür.

İnstitusionalist dəyişiklərdə təşkilatlar mühüm rol oynayır. Təşkilatlar sözün geniş mənasında - hər hansı bir məqsədə bir yerdə nail olma səyi ilə birləşmiş insanlar

qrupudur. Gəliri maksimallaşdırmaq məqsədini güdərək, təşkilatlar və onların rəhbərləri institusional dəyişikliklərin istiqamətini formalaşdırır. Dəyişikliklərin iki əsas strategiyası mövcuddur: biri mövcud məhdudiyyət yığımı çərçivəsində aparılır, digəri isə, məhdudiyyətlərin özünün dəyişilməsini tələb edir .

Səmərəli qaydalar, sözsüz ki, uğursuz hərəkətləri təcrid edən və uğurluları müdafiə edənlərdir. məhz onlar iqtisadi artıma səbəb olur.

Amma təbii ki, sual yaranır: nə üçün qeyri-səmərəli formalar saxlanılır? Fəaliyyətin davamlı aşağı parametrləri ilə iqtisadiyyatların yaşamasını hansı amillər təmin edir? Yeni təsərrüfat formalarının təcrid olunmasına səbəb nədir? Əvvəlki inkişafın trayektoriyasının rolu nə qədərdir? Ancaq təsadüfü hadisələrlə qeyri-səmərəli texnologiyalar və təsərrüfatçılıq formaları kifayət qədər tərəfdar tapır?

İnstitusional sistem istənilən iqtisadiyyatda təşkilatlar üçün həm məhsuldar, həm də qeyri-məhsuldar stimullar yaratdığından, milli iqtisadiyyat müxtəlif inkişaf meyllərinin birləşməsini əks etdirir. Əgər əks əlaqə yarımçıq, transaksion xərclər böyükdürsə, onda inkişafın istiqaməti oyunçuların subyektiv modelləri ilə formalaşacaq. Burada müxtəlif institusional məhdudiyyətlər və özünəməxsus institusional fəndlər müəyyən edilir. Bütün bu sualları Amerika iqtisadçısı Duqlas Nort (*1920*) özünün "İnstitutlar, iqtisadiyyatın fəaliyyətinin institusional dəyişiklikləri" əsərində qarşıya qoyur [6].

Uzunmüddətli iqtisadi dəyişikliklər bir qayda olaraq, siyasi və iqtisadi agentlərin saysız-hesabsız qısamüddətli qərarlarının yığılması nəticəsidir. Agentlərin seçimi onların ətraf mühit haqqında subyektiv təsəvvürünü əks etdirir. Ona görə də, nəticə və niyyət arasında uyğunluq səviyyəsi bu təsəvvürlərin nə qədər düzgün olmasından asılıdır. Modellər ideyaları, ideologiyanı, əqidəni (*bunlar ən yaxşı halda ancaq qismən dəyişikliyə və əks əlaqə vasitəsilə yaxşılığa məruz qala bilər*) əks etdirdiyindən, nəticələr əksər halda nəinki qeyri-müəyyən, həm də gözlənilməz olur.

Geridə qalmış ölkələrin milli iqtisadiyyatının inkişafı problemləri əsasən sol radikal iqtisadçılar tərəfindən öyrənilib. Onların istehsalın periferiya üsulu konsepsiyasına institusionalizmin xüsusi növü kimi baxmaq olar. Sol radikalların diqqət mərkəzində zərərli, periferiya, asılı inkişaf nəzəriyyələri dayanırdı. Periferiyalı inkişafın öyrənilməsi istehsalın yox, beynəlxalq ticarətin mübadilə sferasının təhlilindən başlayıb.

Ənənəvi cəmiyyətin tez bir zamanda yenidən qurulmasına cəhddə olan uğursuzluq nəinki periferiyalı iqtisadiyyatın daxili problemlərinə diqqət yetirməyə, həm də uğursuzluqların xarici iqtisadi sahədə səbəblərinin axtarışına gətirib çıxardı. Bir sıra alimlərin təhqiqat mərkəzində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında münasibətlərin antoqonizm problemi dayanır.

Sol radikallar əyani surətdə göstərdilər ki, inkişaf etməkdə olan ölkələrin daxili amilləri xarici amillərin əksi kimi çıxış edir. Asılılıq zəif inkişafdan yarandığı kimi, zəif inkişaf da asılılığın yaranmasına səbəb olur. Belə vəziyyətin yaranma

səbəblərinin müəyyən etmək cəhdi onların nəzərini tarixə yönəldir. Onların sırasında əsasən, alman iqtisadçısı A.Q.Frankın (*1929-2005*) və Amerika sosioloqu İ.Vallerstaynın (*1930*) əsərlərini sadalamaq lazımdır [2, 8, 9].

Assimmetrik qarşılıqlı asılılığın güclənməsi haqqında ideya İmmanuel Vallerstaynın dünya-iqtisadiyyat konsepsiyasında orijinal şərhini tapmışdır.

Dünya-sistemli yanaşma tərəfdarlarının kitablarında XV əsrdən XX əsrə qədər uzun müddət ərzində kapitalist dünya-iqtisadiyyatının əsas təkamül mərhələləri göstərilmişdir. Müstəmləkə dövrünün qeyri-müstəmləkə dövrünə keçidi burada təsvir olunur [9].

Kapitalizmin inkişafının üçüncü eşelondan olan dövlətlərinin geridə qalmasının əsas günahı "qızıl milyard" ölkələrinin üzərindədir. Birinci eşelondan olan bu yüksək inkişaf etmiş ölkələr dünya kapitalist təsərrüfatı sisteminə elə rəhbərlik edirlər ki, geridə qalmış ölkələr sadəcə geridə qalmağa məcburdurlar: onların xammal resurslarını aşağı salınmış qiymətlə alırlar, yüksək texnologiyadan olan məhsulları isə onlara baha qiymətlə satırlar; onları qabaqcıl texnologiyalara yaxın buraxmırlar; onların nəinki kapitallarını, həm də "beyinlərini sorub çıxarırlar. Bir sözlə, birinci eşelondan olan "aristokratlar" nəinki onlara çatmağa çalışanlara əl uzatmaq istəmirlər, hətta bu qabaqcıl ekspresin məhəccərindən tutanların "əllərinə vururlar".

Aralıq vəziyyət (*yarıperiferiya)* tutan ölkələr də peyda olur. Onlar mərkəzə münasibətdə periferiya olurlar, amma bu zaman daha zəif ölkələr üçün "mərkəzə" çevrilirlər.

Beləliklə - institusionalizm ilə bağlı strategiyanın təkmilləşdirilməsinin elmi əsaslandırmaları təhlil edərkən belə nəticə hasil olunur ki, institutlar insanlar arasında qarşılıqlı münasibətləri, həmçinin, məhz onların yerinə yetirilməsini təmin edən tədbirlər sistemi kimi çıxış edirlər. Onlar insanları qarşılıqlı fəaliyyətə vadar edən struktur yaradır, gündəlik həyatı təşkil edərək, qeyri-müəyyənliyi azaldırlar.

## 4. Nəticə

Milli iqtisadiyyata nəzəri baxışlarla əlaqədar aparılan təhlillə bağlı belə bir nəticəyə gəlirik ki, milli iqtisadiyyat nəzəriyyələri iqtisadi fikrin əsas axınına alternativ kimi inkişaf etmişdir.

Əgər meynstrim əsasən milli iqtisadiyyatların universal inkişafı nəzəriyyələri ilə məşğul olurdusa, kameralistika, alman tarixi məktəbi, köhnə institusionalizm, postkeynsçilik, sol radikal iqtisadi məktəb və yeni institusional nəzəriyyə milli iqtisadiyyatın təhlilinin nəzəri əsaslarını qoydu.

İqtisadi sistemlər-müəyyən vəhdət, cəmiyyətin iqtisadi strukturunu təşkil edən qarşılıqlı bağlı olan iqtisadi elementlərin məcmusudur; insan cəmiyyətinin inkişafının müxtəlif mərhələlərində iqtisadi rifahın istehsalı, bölgüsü, mübadiləsi və istehlakı xüsusunda formalaşan münasibətlərin vahidliyidir.

Tarixi aspektdə iqtisadi sistemlərin təhlilinə verilən əsas yanaşmaların təsnifatına nəzər yetirərək, şərti olaraq mövcud yanaşmaları formasiya və sivilizasiyalara bölmək olar. Sonuncuya bəşəriyyətin inkişafına etnosların məcmusu kimi baxmaq da yaxınlaşır. İnkişaf nöqteyi-nəzərindən bir sıra tədqiqatçılar hesab edir ki, bəşəriyyət proqressiv pillələri keçir; digərləri isə hesab edir ki, inkişafı tsikl həyata keçirir.

Milli iqtisadiyyatın öyrənilməsi aşağıdakı əsas təcrübənin formalaşmasına səbəb olur:

- milli iqtisadiyyatın təşəkkülü, müasir vəziyyəti və inkişaf perspektivində ümumi və xüsusi biliklər;
- millətin obyektiv iqtisadi, sosial və siyasi həyat şəraitinin anlaşılması, onların milli iqtisadi mentallıqda və sosial-iqtisadi normalarda və iqtisadi agentlərin davranış qaydalarında əks olunması;
- milli iqtisadiyyatın mikro, mezo və makrosəviyyədə fəaliyyət xüsusiyyətlərinin və sahə və ərazi komplekslərinin inkişaf mexanizmlərinin, milli iqtisadiyyatın dövlət tənzimləmə sisteminin öyrənilməsi;
- zəruri məlumatları əldə etmək, formalaşan vəziyyəti təhlil etmək, mövcud resurslardan səmərəli istifadə edərək, regionların, sahələrin və bütün xalq təsərrüfatı kompleksinin sosial-iqtisadi inkişafını modelləşdirmək bacarığı;
- pul-kredit və fiskal siyasətin müasir metodları ilə dövlət tənzimlənməsini həyata keçirmək, qabaqcıl milli layihələrin hazırlanmasında iştirak etmək və reallaşdırmaq bacarığı;
- müasir iqtisadi-riyazi metodların köməyilə proqnozlar tərtib etmək və strateji və taktiki planlaşdırma vərdişlərinə malik olmaq bacarığı;
- institusional iqtisadiyyat metodlarının və ictimai seçim nəzəriyyəsinin istifadəsi ilə sosial-iqtisadi və siyasi proqramları təhlil etmək bacarığı.

## Ədəbiyyat:


1. K.Marks, F.Engels Əsərləri. 2-ci nəşr. 4 cilddə, Bakı: Dövlət nəşriyyatı. 1978-1981.
2. Блауг М. Экономическая мысль в ретроспективе. М.: НП “Журнал вопросы экономики”. 2004. 416 с.
3. Вебер М. Избранные произведения. М.: Прогресс, 1990. 345 с
4. Веблен Т. Теория праздного класса. М.: Прогресс, 1984. 312 с.
5. Носова С.С. Экономическая теория, М.: “ВЛАДОС”, 2007, 272 с.
6. Норт Д. Институты, институциональные изменения и функционирование экономики. М.: Фонд экономической книги “Начало”, 1997, 180 с.
7. Уильямсон О. Экономические институты капитализма. Санкт-Петербург: Лениздат. 1996. 582 с.
8. Основы экономической теории. Политэкономия. Учебник под редакцией Д.Д.Московина. М.: Наука. 2000. 576 с.
9. http://www. gallery.economicus.ru (iqtisadçı alimlər qalerayası portalı).

**Гамидова Мехрибан Ядулла кызы**
доцент, доктор философии по экономике, Бакинский Государственный Университет
narqiz@mail.ru

## Теоретические взгляды национальной экономики

**Аннотация**

*Цель исследования* - исследование теоретических взглядов на национальную экономику, как на сложное хозяйство, социальную, организационную, научно-технологическую систему и обоснование своеобразных особенностей.

*Методология исследования* - системный подход и методы сравнительного анализа.

*Результаты исследования* - определение новых научно-теоретических обоснований с точки зрения развития теории по национальной экономике.

*Ограничения исследования* - с точки зрения научно-теоретических обоснований требуются более широкие исследования.

*Практическая значимость исследования* - возможность использования в качестве научного источника при разработке новых концепций развития национальных экономик.

*Оригинальность и научная новизна исследования* - выступает как одно из новых научно-исследовательских обоснований, связанных с теорией национальной экономики.

**Ключевые слова:** *экономическая теория, национальная экономика, институционализм.*

**Hamidova Mehriban Yadulla qizi**
PhD in Economics, Baku State University
narqiz@mail.ru

## Theoretical views on the national economy

**Abstract**

*Purpose* - study of theoretical views on the national economy, as the difficult economy, social, organizational, scientific and technological system and the rationale for the peculiar features.

*Design/methodology* - systematic approach and methods of comparative analysis.

*Findings* - identification of new scientific and theoretical justification in terms of theory development on the national economy.

*Research limitations* in terms of scientific and theoretical studies require more extensive research.

*Practical implications* - ability to use as a research source in the development of new concepts of national economies.

*Originality/valu*e - stands as one of the new research studies related to the theory of national economy.

**Key words:** *economics, national economy, institutionalism.*

**JEL Classification Codes:** B13, B14, E13. E21.

Məqalə redaksiyaya daxil olmuşdur: 09.09.11.
Təkrar işləməyə göndərilmişdir: 16.09.11.
Çapa qəbul olunmuşdur: 01.11.11.